# "The Goldman Sachs Group Inc." şirkəti ilə səmərəli əməkdaşlıq qurulub

## Prezident İlham Əliyev şirkətin qlobal məsələlər üzrə prezidentini qəbul edib

**Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Koheni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Cared Kohenin bu ilin yanvarında Davosda görüşü məmnunluqla xatırlandı.

Ölkəmizlə "The Goldman Sachs Group Inc." şirkəti arasında 2010-cu ildən səmərəli əməkdaşlığın qurulduğu qeyd edilərək, Azərbaycan Respublikası Dövlət Neft Fondunun bu şirkətlə uğurlu tərəfdaşlığından məmnunluq bildirildi.



Görüşdə avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin dəstəyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlərin önəminə toxunuldu və bu nəticələrin regionun hərtərəfli inkişafı üçün geniş imkanlar yaratdığı vurğulandı.

Söhbət zamanı ölkəmizlə şirkət arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis olunub. İnvestisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə olunması sahələrində xidmətlər təqdim edən aparıcı qlobal maliyyə institutu hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. Mənzil-qərargahı Nyu York şəhərində yerləşən şirkət 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

Azərbaycan.- 2025.- 20 avqust (№174).- S.1.